Ədəbiyyat QƏZETİ

# Dayandur Sevginin yubiley tədbirində



Mayın 17-də AYB-nin Natəvan klubunda tanınmış şair Dayandur Sevginin 65 illik yubileyi münasibətilə tədbir keçirildi, eyni zamanda yaxın günlərdə nəşr edilmiş "Dərdi şairindi bu yer üzünün" adlı kitabı təqdim olundu.

Tədbiri Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli açaraq şairin özünəməxsus yaradıcılığı barədə geniş məlumat verdi. Vurğulandı ki, ədəbiyyatşünas alim Qurban Bayramovun təbirincə desək, bütünlükdə milli-mənəvi dəyərlər Dayandur Sevginin sevgi dolu poetik yaradıcılığının, mənəviyyatının, lirik "mən"inin əsas qayəsini, ana xəttini təşkil edir.

AYB-nin poeziya seksiyasının rəhbəri İbrahim İlyaslı da D.Sevgin yaradıcılığının bu vacib cəhətlərindən geniş söz açdı.

Xalq yazıçısı, AYB-nin sədri Anar D.Sevginin bir qələm adamı, şəxsiyyət kimi fəal həyat mövqeyini yüksək dəyərləndirib ona yeni yaradıcılıq uğurları arzuladı.



AYB-nin katibi Səlim Babullaoğlu, tanınmış yazıçı Səyyad Aran, ədəbiyyatşünas alim Qurban Bayramov, tənqidçi Əsəd Cahangir, filologiya üzrə fəlsəfə doktoru Ramiz Göyüşov, şair və yazıçılardan Zahid Xəlil, Adil Cəmil, Ağacəfər Həsənli, İslam Sadıq, Yusif Nəğməkar, İlqar Türkoğlu, Elxan Zal Qaraxanlı, Sərvaz Hüseynoğlu, Təranə Quliyeva, Nazilə Gültac, Narıngül Nadir, Nəcibə İlkin, Fəxrəddin Meydanlı, Rəfail İncəyurd və başqaları qələm dostlarını yubileyi münasibətilə təbrik edib, xoş ürək sözlərini səsləndirdilər, təqdim edilən kitabının məziyyətlərindən söz açdılar.

Tədbirdə Xalq yazıçısı, AYB-nin birinci katibi Çingiz Abdullayevin yubilyara ünvanladığı təbrik səsləndirildi.

Vurğulandı ki, Dayandur Sevgin ədəbiyyata həyatın özündən gəlib. Bəlkə də elə bu səbəbdəndir ki, onun şeirləri həyatın özü kimi sadə, görümlü, təbii cizgilərlə zəngin və yaddaqalandı. O, Aran ədəbi mühitinin estetik dəyərlərini və duyumunu mərkəzi ədəbiyyat camisinə layiqincə daşıya bilən söz adamlarından biridir. Dayandur Sevgin şeirlərində düşüncəsinin məntiqi yekunu kimi həm özünü ifadə edir, həm də sanki sələflərinə xatırladır ki, "mən sizin ruhunuzu qoruyuram". Bu, öz sələfi qarşısında bir xələflik borcudur.

Sonda Dayandur Sevgin yaradıcılığına göstərdiyi diqqət və qayğıya görə Xalq yazıçısı Anara minnətdarlığını bildirdi. Tədbir iştirakçılarına təşəkkür etdi. Yeni şeirlərini oxudu.

*Aynur HƏTƏMOVA*

2024.-18 may,№18.S.29